## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
## ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun**
**Gənc alim və mütəxəssislərin 3-cü qrant müsabiqəsinin**
**(EİF/GAM-3-2014-6(21)) qalibi olmuş layihənin yerinə**
**yetirilməsi üzrə**

# YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı**: XX əsrin ilk yarısı türk romanında multikulturalizm**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Babayeva Eşqanə Akif qızı**
Qrantın məbləği: **9 000 manat**
Layihənin nömrəsi: **EİF/GAM-3-2014-6(21)-24/22/5-M-12**
Müqavilənin imzalanma tarixi: **11 dekabr 2015-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 yanvar 2016-cı il – 01 yanvar 2017-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Layihənin həyata keçirilməsi üçün nəzərdə tutulan işlər əsasən, müxtəlif elmi jurnallarda məqalələr çap etdirmək, beynəlxalq və ölkədaxili konfrans və simpoziumlarda layihənin tanıtımı məqsədilə məruzələrlə iştirak etmək idi.<br>Tədqiqat boyu istifadə olunan üsul və yanaşmalar, müasir elmi nəzəri metodologiyaya əsaslanır.Tədqiqata cəlb olunan əsərlərin müxtəlif paradiqmalarda birləşən oxşar və fərqli cəhətləri müqayisə olunmaqla elmi qənaətləri əldə edilir. Tədqiqatın yerinə yetirilməsi zamanı əsasən sistemli struktur, tarixi-müqayisəli təhlil metodundan istifadə olunmuşdur. Yeri gəldikcə multidissiplinar yanaşma üsuluna da müraciət olunmuşdur. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)* |

| | |
|---|---|
| | Layihədə nəzərdə tutulan işin təxminən 70% -i yerinə yetirilib. Mövzunun yeniliyi, ilk dəfə işlənilməsi və fundamental xarakter daşıdığını nəzərə alsaq, bunu 12 ay üçün qənaətbəxş nəticə hesab etmək olar. |
| **3** | Hesabat dövründə alınmış elmi nəticələr (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>1. "XX əsrin əvvəlləri türk ədəbiyyatında yeni tendensiyalar" adlı məqalədə dövrün ictimai-siyasi, ədəbi-mədəni hadisələrini tədqiqata cəlb edərək, onun ədəbiyyata təsirini müəyyənləşdirmiş, həmin mərhələnin ədəbi prosesini təhlil edərək, yeni tendensiya, dəyişən təmayüllər üzərində durulmuşdur. Bu hadisələrin bədii yaradıcılıq prosesinə təsiri müəyyənləşdirilmiş, birbaşa mətndə təzahürü araşdırılmışdır. Dövrün əsas prioritetləri üzərində durulmuş, həm ədəbi-mədəni, həm də ictimai həyatda qərbləşmə hərəkatının öncüllük etdiyi mülahizəsi irəli sürülmüşdür. Bu problemlərin əsasında multikultural muhit işıqlandırılmışdır.<br><br>2. "Musiqi konflikt və sintez yaradan vasitə kimi (XX əsrin əvvəlləri türk romanları əsasında)" adlı məqalədə XX əsrin əvvəllərində qələmə alınmış türk romanlarında öz əksini tapan musiqi motivinə toxunulmuş, musiqinin milli-mənəvi dəyərləri üzərində durulmuşdur. Qeyd edək ki, həmin dövrdə milli musiqiyə müxtəlif münasibətlər olmuş, hətta bir müddət klassik türk musiqisinə qadağa qoyulmuşdur. Bu problem bu vəya digər dərəcədə bədii ədəbiyyatda, xüsusən də X.Ə.Adıvar, P.Səfa, N.F.Qısakürəkin yaradıcıllığında öz əksini tapmışdır. Tədqiqat işində roman janrı əsas alınaraq mədəniyyətlərarası konflikt probleminin musiqi bədii detalı ilə xarakterizə olunduğu göstərilmişdir. Adından da bəlli olduğu kimi, musiqi konflikt və ya sintez yaradan vasitə kimi ələ alınmışdır. Qeyd edək ki, romanlarda ələ alınan bu məsələ ilk dəfə olaraq multidissiplinar yanaşma üsulu ilə tədqiqata cəlb olunmuşdur.<br><br>3. "İstiqlal mücadiləsinin türk romanına etkisi və "Atəşdən köynək" romanında doğu-batı" adlı məqalədə XX əsrin əvvəlləri türk romanının əsas mövzularından birinə çevrilən istiqlaliyyət uğrunda mübarizə motivinə toxunulmuşdur. Qeyd edək ki, Milli mücadilə dövrü türk romanında deyil, ümumiyyətlə poeziyada da, dramaturgiyada da öz əksini tapmışdır. Avropaya qapıların açılması, Türkiyənin yeniləşmə dönəminə ayaq basması, digər tərəfdən də azadlıq uğrunda mübarizə bu dönəmin ən önəmli hadisələrindəndir. Əlbəttə ki, bu böyük hadisələr bədii ədəbiyyatdan izsiz keçməmişdir. Xalidə Ədib Adıvarın “Atəşdən köynək” (1922), Peyami Səfanın “Sözdə qızlar” (1922), “Biz İnsanlar” (1939), Yaqub Qədri Qaraosmanoğlunun “Sodom və Gomore” (1928), “Yaban” (1932), “Ankara” (1934), Mehmed Raufun “Xilas” (1929), Midhad Camal Quntayın “Üç İstanbul” (1938), Kamal Tahirin “Əsir şəhərin insanları” (1956), “Əsir şəhərin məhbusu” (1961), “Yorğun Savaşcı” (1965) və s. əsərlər ideya-məzmun baxımdan məhz bu mövzunu ifadə edir. Məqalədə, ümumi olaraq Türk romanında istiqlaliyyət mövzusundan bəhs edilərək, türk ədəbiyyatının böyük şəxsiyyətlərindən biri olan X.Ə.Adıvarın "Atəşdən köynək" romanı tədqiqata cəlb edilmişdir. Araşdırma zamanı multikultural muhitə də nəzər yetirilmişdir. Xüsusilə də şərq-qərb məsələsi diqqətdə saxlanılmışdır.<br><br>4. "Azərbaycan-Türkiyə ədəbi əlaqələrinə bir nəzər (1990-2016-cı illər)" adlı məqalədə müstəqillik dövründə Azərbaycan-Türkiyə arasında gedən ədəbi əlaqələrdən bəhs edilir. Məqalədə göstərilir ki, Azərbaycan və Türkiyə arasında dinamik inkişafla səciyyələnən ədəbi-mədəni əlaqələr bir müddət məlum ideoloji-siyasi qadağalara məruz qalmışdır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra isə qədim və zəngin türk ədəbiyyatının obyektiv şəkildə öyrənilməsinə münbit şərait yaranmışdır. Elə bu səbəbdən də, 90-cı illərdən sonra Azərbaycan-Türkiyə ədəbi əlaqələri böyük bir inkişaf sürəcinə qədəm qoymuşdur. Müstəqillik illərində Azərbaycan-Türkiyə ədəbi əlaqələri monoqrafiya, dissertasiya, elmi məqalə səviyyəsində tədqiq olunmuşdur. Bu araşdırmaların ən gözəl nümunələrini görkəmli türkoloqlardan A.Abıyev, T.Məlikli, A.Musayeva, Ə.Rəsulov, A.Babayev, |

E.Quliyev, R.Əskər, Ə.Şamil, A.Xəlil və başqaları həyata keçirmişlər. Məqalədə, türkoloqlarımızın əsərlərinə diqqət yetirilmiş, bu sahədə yazılmış, demək olar ki, bütün monoqrafiya və əsərlər sistemləşdirilmişdir. Daha sonra, ədəbi əlaqələrin öyrənilib inkişaf etdirilməsində dissertasiyaların əhəmiyyətindən bəhs edilmiş, bu mövzuda yazılan dissertasiyalar sistemləşdirilmişdir. Məqalədə, ədəbi əlaqələrin inkişafında türkdilli əlyazmaların tədqiqi, nəşri və təbliği məsələsi də diqqətdə saxlanılmışdır. Əlbəttə ki, ədəbi əlaqələrin inkişafında bədii tərcümənin rolu əvəzsizdir. Bu səbəbdən, bədii tərcümə məsələsinə də toxunulmuşdur. Azərbaycan-Türkiyə ədəbi əlaqələri müxtəlif kontekstlərdən öyrənilsə də, bu məqalə müstəqillik dövründə Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin öyrənilməsi haqqında ilk sistemli araşdırmadır.

5. "Xalidə Ədib Adivarın "Tatarcıq" romanı multikultural dəyərlər kontekstində" adlı məqalədə ilk öncə dövrün ictimai-siyasi ədəbi mühitinə nəzər salınır, daha sonra Xalidə Ədib Adıvarın "Tatarcıq" romanı multikultural dəyərlər kontekstində təhlil olunur. Romanı multikultural dəyərlər kontekstində incələdikdə bu qənaətə gəlirik ki, Xalidə Ədib Adıvarın "Sinəkli baqqal“, "Zeynonun oğlu" və s. əsərlərində olduğu kimi "Tatarcıq" romanında da Şərq-qərb sintezi geniş yer alır. Əsəri tədqiq edərkən, yazıçının əslində baş qəhrəmanı Tatarcıq adlandırmasının da təsadüfi olmadığını, "Tatarcıq" adının bir növü açar söz kimi ifadə edildiyini görürük. Romanı multikultural dəyərlər kontekstində incələdikdə bu qənaətə gəlirik ki, Xalidə Ədib Adıvarın "Sinəkli baqqal“, "Zeynonun oğlu" və s. əsərlərində olduğu kimi "Tatarcıq" romanında da Şərq-qərb sintezi geniş yer alır. Adıvar, bu əsərində də yanlış qərbləşməyə qarşı çıxır. Hətta, əsərdə gənc qızların özlərinin üst təbəqəyə məxsus olduqlarını göstərmək üçün geyim-gecimdən tutmuş, ingilis dili öyrənməyə qədər cəhd etdiklərini göstərir. Sərfinazın timsalında modern cəmiyyətə ayaq uydurmaq üçün hətta adını belə dəyişib Suzan qoyduğunu göstərərək Avropalılaşmanı, müasirləşməni qərbin qəlibinə girməkdə görənləri kəskin tənqid atəşinə tutur. Üst təbəqəyə məxsus adamların balo gecələri, söhbətləri, qeyri-səmimilikləri bir sözlə cəmiyyətə sirayət edən bütün eybəcərliklər öz ifadəsini tapır. Bunlarla yanaşı, müasirləşmək, qərbləşmənin gətirdiyi sivilizasiyalar üzərində də durulur. Əsərdə multikultural dəyərlərlə yanaşı, maarifçilik ideyalarının təbliği geniş yer tutur. Qeyd edək ki, böyük türk yazıçısı Xalidə Ədib Adıvar haqqında araşdırmalar Azərbaycanda ilk dəfə olaraq bu layihə çərçivəsində işıqlandırılır. Xalidə Ədib Adıvarın "Tatarcıq" romanının multikultural dəyərlər kontekstində araşdırılması isə məqalənin ən mühüm yeniliklərindəndir.

6. "XX əsrin əvvəlləri Türk ədəbiyyatında qərbləşmə" mövzusunda məqalədə dövrün ictimai-siyasi, ədəbi-mədəni hadisələrini tədqiqata cəlb edərək, onun ədəbiyyata təsirini müəyyənləşdirmiş, həmin mərhələnin ədəbi prosesini təhlil edərək, yeni tendensiya, dəyişən təmayüllər üzərində durulmuşdur. Bu hadisələrin bədii yaradıcılıq prosesinə təsiri müəyyənləşdirilmiş, birbaşa mətndə təzahürü araşdırılmışdır, həm ədəbi-mədəni, həm də ictimai həyatda qərbləşmə hərəkatının öncüllük etdiyi mülahizəsi irəli sürülmüşdür. Məqalədə birbaşa ədəbi prosesə təsir edən qərb ədəbi cərəyanları araşdırılmış, ədəbi prosesdə təzahürü ifadə olunmuşdur.7. "X.Ə.Adıvarın "Sinəkli Bakkal" romanında Doğu-batı sintezi" mövzusunda məqalə 12-15 aprel 2017-ci il tarixində Kazanda keçirilməsi nəzərdə tutulan "Dəyişən dünyada Türk xalqlarının gələnəksəl kültürü" I. Beynəlxalq elmi konfransına təqdim edilmişdir. Məqalə qəbul olunmuşdur.

8."X.Ə.Adıvarın "Sinəkli Bakkal" romanında Doğu-batı sintezi" mövzusundakı məqalədə adından da göründüyü kimi şərq-qərb problemi tədqiqata cəlb olunmuşdur. Qeyd edək ki, X.Ə.Adıvar hələ Tənzimat dövründən başlayaraq Qərbləşmə prosesinin Türkiyədə düzgün anlaşılmadığı qənaətində olan yazıçılardandır.Əsərdə qərb təqlidçiliyi türklüyün milli kimliyindən uzaqlaşması problemi tənqid edilir, Şərq-Qərb sintezi mülahizəsi irəli sürülür, milli-mənəvi dəyərlərə önəm öz ifadəsini tapır.Evliaya Vehbi Dədə, öz kökünə bağlı olan Rəbiə, islamı qəbul edən Peregrini (Osman) mənəvi dəyərləri özündə ifadə edən xarakterlərdir. Konflikt yoxsa

| | |
|---|---|
| | dialoqun irəli sürüldüyü bu əsərdə milli-mənəvi dəyərlərə önəm ön plandadır.Əsərdə, Cümhuriyyətin başlanğıcından bəri dəyişən dünya və kültürəl dəyərlər, konflikt problemi, Tənzimat dövründən başlayan, sonralar isə daha da alovlanan qərbləşmə hərəkatının Türk cəmiyyətindəki təsiri araşdırılmaqda, multikultural dəyərlərə önəm irəli sürülməkdədir.<br>Bunlardan başqa, "Azərbaycan və Türk ədəbiyyatında mültikultural dəyərlərə bir nəzər" və "Qurban Səidin "Əli və Nino" romanı və Xalidə Ədib Adıvarın "Sinəkli baqqal" romanında multikultural dəyərlər" mövzusunda iki ayrı məqalə üzərində də tədqiqat aparıram. Məqalə sistemləşdirilmiş, amma hələ yekunlaşmamışdır. Hər iki məqalədə müqayisəli təhlil metodundan istifadə olunur. Türk və Azərbaycan ədəbiyyyatı nümunələrinin multikultural dəyərlər kontekstində müqayisəli tədqiqi həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatı üçün yenidir.<br>Qeyd edək ki, bu tədqiqatların tətbiqi və istifadəsi Türk xalqları ədəbiyyatı, Türkiyə Türk ədəbiyyatı, Müqayisəli olaraq Azərbaycan və türk ədəbiyyatı, Ədəbiyyat tarixi və Ədəbiyyat nəzəriyyəsi sahələrində mümkündür. |
| **4** | Layihə üzrə elmi nəşrlər (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>1. . "XX əsrin əvvəlləri türk ədəbiyyatinda yeni tendensiyalar", "Gənc tədqiqatçı" elmi-praktik jurnalı, 2016, II cild, s.109-115.<br>2. "Musiqi konflikt və sintez yaradan vasitə kimi (XX əsrin əvvəlləri türk romanları əsasında)". Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktik konfransın materialları, Bakı: ADMİU-nun mətbəəsi, 2 may 2016-cı il, s.112-116.<br>3. "İstiqlal mücadiləsinin türk romanına etkisi və "Atəşdən köynək" romanında doğu-batı" adlı məqalə ingilis və türk dillərində hazırlanaraq Makedoniyanın Qostivar şəhərində dərc olunan beynəlxalq-elmi jurnal olan "Hikmət" dərgisinə göndərilmişdir. Məqalə çapdadır.<br>4."Azərbaycan-Türkiyə ədəbi əlaqələrinə bir nəzər", I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni həyatda ortaq dəyərlər və yeni çağırışlar mövzusunda Beynəlxalq-elmi konfransın materialları, Bakı: Elm və təhsil, 14-15 noyabr, 2016, s. 296-300.<br>5. "Xalidə Ədib Adivarın "Tatarcıq" romanı multikultural dəyərlər kontekstində" , XXI əsrdə dünya elminin inteqrasiya prosesləri. Gənclərin beynəlxalq elmi forumunun materialları, 10-14 oktyabr, 2016, Gəncə, s.471-473.<br>6. "XX əsrin əvvəlləri Türk ədəbiyyatında qərbləşmə" mövzusunda məruzə 21-22 noyabr 2016-cı il tarixlərində AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda keçirilən Gənc türkoloqların I Türkoloji Qurultayının 90 illiyinə həsr olunmuş "Müasir türkoloji tədqiqatlar: problem və perspektivlər" Beynəlxalq-elmi konfransında dinlənilmişdir. Çapdadır.<br>7. "X.Ə.Adıvarın "Sinəkli Bakkal" romanında Doğu-batı sintezi" mövzusunda məqalə 12-15 aprel 2017-ci il tarixində Kazanda keçirilməsi nəzərdə tutulan "Dəyişən dünyada Türk xalqlarının gələnəksəl kültürü" I. Beynəlxalq elmi konfransına təqdim edilmişdir. Məqalə qəbul olunmuşdur.<br>8. "Midhat Camal Kuntayın "Üç İstanbul" romanında Mehmed Akif" mövzusunda məqalə Ardahan Universiteti Belgü elmi jurnalına təqdim edilmişdir. Məqalə 13 səhifə həcmindədir.<br>9. Bunlardan başqa, iki məqalə üzərində də tədqiqat aparıram. Məqalə yekunlaşmamışdır.<br>"Azərbaycan və Türk ədəbiyyatında mültikultural dəyərlərə bir nəzər" adlı məqalə təxminən 6-7 səhifə həcmində nəzərdə tutulur.<br>Digər üzərində çalışdığım məqalə isə Qurban Səidin "Əli və Nino" romanı ilə Xalidə Ədib Adıvarın "Sinəkli baqqal" romanının müqayisəli təhlilindən ibarətdir. Hər iki əsər multikultural dəyərlər kontekstində təhlil edilir. Məqalə təxminən 6-7 səhifə həcmində nəzərdə tutulur. |

| | |
|---|---|
| | |
| **5** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |
| **6** | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>Layihə üzrə nəzərdə tutulduğu kimi 05 iyundan 16 iyul tarixinə qədər Türkiyənin Ankara şəhərində Milli Kitabxanada tədqiqat aparmaq üçün ezamiyyətdə olmuşam. Onu da qeyd edim ki, Azərbaycanda XX əsrin ilk yarısı türk romanlarıyla bağlı kifayət qədər material yox idi. Ankaraya elmi ezamiyyətimin əsas məqsədlərindən biri də material toplamaq idi. Üzərində çalışdığım əsərlər XX əsrin ilk yarısına aid olduğu üçün əsərlərin bir qismi osmanlı əlifbası ilə nəşr olunmuş, bir qismi isə latın əlifbası ilə dərc olunsa da yalnız həmin dövrdə bir neçə dəfə nəşr olunmuş, sonra isə tamamilə unudulmuşdur. Tədqiqatımın daha keyfiyyətli olması üçün əsərlərin ilk çap nüsxələrini əldə etməyə çalışırdım. Ümumiyyətlə, kitabxanada olduğum müddətdə əldə etdiyim materialların yeniliyi, bəzən də nadirliyi və Azərbaycan kitab bazarında, eləcə də kitabxanalarımızda, həmçinin internetdə olmaması ezamiyyətin layihənin yerinə yetrilməsindəki faydasını bir daha vurğuladı. Ezamiyyət müddətində tədqiqat mövzumla bağlı çoxlu sayda materialla tanış olmağa müyəssər olmuşam. Bunların arasında biravasitə mütaliə etdiklərim, kserokopiya vasitəsilə faydalandıqlarım, eyni zamanda fotoaparat vasitəsi ilə şəklini çəkib götürdüklərim vardırTəxminən 40-a qədər Sahaflardan (ikinci əl) əsər aldım.<br>Sahaflardan aldığım kitablarla birlikdə 43 kitab ( foto surətlərlə birlikdə 47) aldım. Bunlardan, Güzide Sabri "Ölmüş bir kadının evrak-i Metrukesi", Ethem İzzet "Yakılacak kitap", Refik Halid Karay "Anahtar", Burhan Cahid "Dünkilerin romanı" və s. adlarını qeyd edə bilərəm.<br>Milli Kitabxanadan başqa, Qazi Universitetinin zəngin kitabxanasından da yararlandım. Burada, eyni zamanda Qazi Universiteti Türk dili və Ədəbiyyatı fakültəsinin professorları Altan Çətin, İsmət Çətin, Nazim Hikmət Polad, Fatma Açık, doç.dr., Xəlil Çəltik, doç.dr., Cəmilə Kınacı, doç.dr., Fatih Sakalı, doç.dr., Kayahan Özgül, Səhər Çəltik kimi dəyərli alimlərlə tanış oldum, tədqiqat işimlə bağlı fikir mübadiləsi etdim. Eyni zamanda, fakültənin elmi və metodik təhlillərlə bağlı dərslərinə qatıldım. Bununla əlaqədar olaraq, mənə sertifikat da təqdim edildi. Onu da qeyd edim ki, orada ''Azərbaycan-Türkiyə ədəbi əlaqələri - ortaq dəyərlər" mövzusunda məruzə etdim.<br>Bundan başqa, TUBİKAM-a (Türk Bilimsəl-Kültürəl və Stratejik Araşdırmalar Mərkəzi) da getdim. Professor Ələmdar Yalçınla görüşdüm. Professor, eyni zamanda Qazi Universitetində çalışdığı üçün mənə orda olduğum müddət ərzində məsləhətçi təyin edildi. Gəldiyim günə qədər hər gün müəyyən saatlarda professorla görüşür, XX əsrin ilk yarısı türk romanlarının multikultural dəyərlər kontekstində tədqiqatı ilə bağlı bəzi tövsiyələrini qeyd edir, müzakirələr aparırdıq.<br>Elmi tədqiqat apardığım elmi müəssisələrdən biri də Ankara Universiteti idi. Burada, Prof.dr., Nurullah Çətin (Ankara Yeni türk ədəbiyyatı kafedrasının müdiri), prof.dr., Səma Barutcu Özöndər (Ankara Çağdaş türk ləhcələri və ədəbiyyatları kafedrasının müdiri), doç.dr., Rıza Heyət, doç.dr., Əminə Gözdə Özgürəl kimi alimlərlə tanış oldum, tədqiqat obyektimlə bağlı müzakirələr apardım.<br>Son olaraq onu da qeyd edim ki, tədqiqat zamanı layihə mövzusuyla əlaqədar olaraq Ankara Universiteti, TUBİKAM və Qazi Universitetinin müəllim-professor heyətiylə fikir mübadiləsi yürüdüb, multikulturalizmlə bağlı müzakirələr apardım. Eyni zamanda mövzuyla əlaqədar olaraq yuxarıda da bildirdiyim kimi, bir çox elmi və bədii əsərlər əldə etdim.<br>Bütün bu qeyd etdiklərim elmi layihənin elmi və praktik baxımdan nə dərəcədə əhəmiyyət kəsb etdiyini göstərir. Əldə etdiyim yeni mənbələr tədqiqat işim üçün olduqca faydalı olmuşdur. |
| **7** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |

| | |
|---|---|
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Yuxarıda qeyd etdiyim Beynəlxalq və Respublika elmi konfranslarından başqa müxtəlif Forum, festival və sərgilərdə də iştirak etmişəm.<br>25-27 aprel 2016-cı il tarixində Bakı şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar alyansının 7-ci Qlobal Forumunda dinləyici olaraq iştirak etmişəm. Forumda multukulturalizmin əhəmiyyəti, inkluziv cəmiyyətlərdə birgəyaşama çağırış kimi mühim məsələlər vurğulandı. |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)*<br>1."Musiqi konflikt və sintez yaradan vasitə kimi (XX əsrin əvvəlləri türk romanları əsasında)" mövzusunda Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri-XV Beynəlxalq elmi-praktik konfransında məruzə edilmişdir (plenar), 2 may 2016-cı il.<br>2. Peyami Səfanın "Fatih-Hərbiyyə" və X.Ə.Adıvarın "Sinəkli Baqqal" romanında multikultural dəyərlər" II Azərbaycan Elm Festivalında məruzə edilmişdir, 30 noyabr, 2016.<br>3. 06-15 iyun 2016-cı il tarixində Türkiyənin Ankara şəhərində elmi ezamiyyətdə olarkən, Qazi Universiteti Filologiya fakültəsində "Azərbaycan-Türkiyə ədəbi əlaqələri, ortaq dəyərlər" mövzusunda seminar verilmişdir.<br>4."Azərbaycan-Türkiyə ədəbi əlaqələrinə bir nəzər" mövzusunda I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni həyatda ortaq dəyərlər və yeni çağırışlar mövzusunda Beynəlxalq-elmi konfransda məruzə edilmişdir (plenar), 14-15 noyabr, 2016.<br>5. "Xalidə Ədib Adivarın "Tatarcıq" romanı multikultural dəyərlər kontekstində" mövzusunda, XXI əsrdə dünya elminin inteqrasiya prosesləri. Gənclərin beynəlxalq elmi forumunda məruzə edilmişdir (plenar), 10-14 oktyabr, 2016, Gəncə.<br>6."XX əsrin əvvəlləri Türk ədəbiyyatında qərbləşmə" mövzusunda, AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda keçirilən Gənc türkoloqların I Türkoloji Qurultayının 90 illiyinə həsr olunmuş "Müasir türkoloji tədqiqatlar: problem və perspektivlər" Beynəlxalq-elmi konfransında məruzə edilmişdir (plenar), 21-22 noyabr, 2016.<br>7. "X.Ə.Adıvarın "Sinəkli Bakkal" romanında Doğu-batı sintezi" mövzusunda məqalə 12-15 aprel 2017-ci il tarixində Kazanda keçirilməsi nəzərdə tutulan "Dəyişən dünyada Türk xalqlarının gələnəksəl kültürü" I. Beynəlxalq elmi konfransına təqdim edilmişdir. Məqalə qəbul olunmuşdur. |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(burada doldurmalı)* |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Türkologiya sahəsində çalışan tədqiqatçıların böyük əksəriyyəti ilə |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Türkiyənin Qazi, Ankara, İstanbul, İzmir, Ardahan və s. universitetlərinin türkoloqları ilə əlaqələrim |

| | |
|---|---|
| | var. |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)*<br>05 may 2016-cı il tarixində "Qafqaz Universitetin"də keçirilən VIII Beynəlxalq Gənclik və Multikulturalizim Festivalında iştirak etmişəm. Multikulturalizmin əhəmiyyətində bəhs edən bu festivalda multikultural dəyərlər dostluğun, qardaşlığın simvolu olaraq təqdim olundu. |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)*<br>06-15 iyun 2016-cı il tarixində Türkiyənin Ankara şəhərində elmi ezamiyyətdə olarkən, Qazi Universitetində elmi və metodik təhlillərlə bağlı dərslərdə iştirak etmişəm. |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)* |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
Quliyeva Mülayim Sahib qızı

__________________
*(imza)*
“ __” ________ 201_-cı il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Babayeva Eşqanə Akif qızı

_________________
*(imza)*
“ __” ________ 201_-cı il